*Peşə təhsili və insan kapitalı. Cild 9, №2, 2026, s.50-53*

# ORTA ƏSRLƏRDƏ QƏRBİ AZƏRBAYCANDA "BAZAR MƏDƏNİYYƏTİ" İLƏ BAĞLI ETNOQRAFİK CİZGİLƏR



**Mahirə Hüseynova,**
*ADPU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru,*
*filologiya elmləri doktoru, professor*
*e-mail: mahire.huseynova@adpu.edu.az*
*https://doi.org/10.30546/2706-7858.2026.2.3043*

Orta əsrlərdə Qərbi Azərbaycana gəlmiş səyyahların yol qeydlərində İrəvan şəhərində fəaliyyət göstərən bazarlar haqqında məlumatlar öz əksini tapmışdır. Osmanlı türklərinin tərtib etdikləri 1590-cı il tarixli *"İrəvan əyalətinin müfəssəl dəftəri"* və 1728-ci il tarixli *"İrəvan əyalətinin icmal dəftəri"*ndə o dövrlərdə bazarlardan vergi almaq məqsədi ilə onlar haqqında məlumatlar verilmişdir. Bu dəftərlərin öyrənilməsi İrəvan ərazisinin tarixən azərbaycanlıların yaşadığı qədim torpaqlarımız olduğunu bir daha sübut edir, xalqımızın minillik maddi-mədəni irsini özündə yaşadan canlı bir tarix kimi bu gün də əhəmiyyətini qoruyub saxlayır.

1590-cı il tarixli "İrəvan əyalətinin müfəssəl dəftəri"nə, eyni zamanda 1728-ci il tarixli "İrəvan əyalətinin icmal dəftəri"nə görə, eyniadlı əyalətin inzibati-ərazi quruluşu – İrəvan şəhəri, Qırxbulaq, Karbi, Maku, Xınzirək, Karni, Vedi, Dərəçiçək, Abaran, Göyçə, Məzrə, Sürməli, İğdır, Aralıq, Şərur, Zarzəmin, Sədərək nahiyələrindən, Naxçıvan sancağı isə Naxçıvan şəhəri, Naxçıvan, Əlincə, Sair Məvazi, Dərəşahbuz, Mülki-Arslan, Məvaziyi-Xatun, Qarabağ, Qışlağat, Dərəzam, Azadciran, Dərənürgüt, Dərələyəz, Sisyan və digər nahiyələrdən ibarət olmuşdur. Bunların da hər birinin ayrıca bir bazarı vardı. 1590-cı ilin "Müfəssəl dəftəri"nə görə, İrəvan şəhəri 6 məhəllədən ibarət olmuş, 1728-ci ildəki "İcmal dəftəri"nə görə isə şəhər 4 məhəllədən ibarət idi ki, hər bir məhəllənin də öz müstəqil bazarı fəaliyyət göstərirdi. Tarixi ardıcıllıqda şəhərdəki məhəllələrin sayının getdikcə azalması, onların birləşməsi, şəhər əhalisinin artması, ərazisinin böyüməsi ilə izah olunmalıdır. "Bazar" sözü öz sözümüz deyil, fars dilindən türk dillərinə keçmiş və qohum dillərdə "alver məkanı", "həftənin yeddinci günü" (yəni istirahət günü) anlamlarında işlədilmişdir. Fars dilində "bazar" sözünə "-i" şəkilçisinin artırılması ilə düzəlmiş "bazari" sözü də var ki, bu da 2 mənada – *"xırda alverçi"* və bazara aid *"satmaq üçün olan"* mənasında işlədilirdi.

Qərbi Azərbaycanın bölgələrində alver bir neçə üsulla həyata keçirilirdi. Məsələn, əksər vaxtlarda arıçılıq təsərrüfatı ilə məşğul olan kəndlər istehsal etdikləri balı digər məhsullarla dəyişərdilər. Belə ki, kəndin biri kərə yağı istehsal edəndə, digəri bal əldə edirdi və bunlar müştərilərin razılığı əsasında bir-biri ilə əvəzlənirdi. İrəvan əyalətinin 1590-cı il və 1728-ci ilinə aid dəftərlərinə görə, Sisyan nahiyəsinə tabe olan Qalacıq kəndi bal istehsal edərək Osmanlı türklərinə 250 ağça miqdarında vergi ödəyirdi və buna *"bal üzrü"* deyirdilər. "Bal" türk dillərinə

məxsus söz olsa da, *"üzr"* ərəbcədən osmanlı türkcəsinə keçmiş və bu dildə 2 mənada – "onda bir" (1/10) və "məhsulun onda bir miqdarında dini vergi" mənasında işlənmişdi. "Ağça" sözünün mənası isə "gümüş pul, qəpik" deməkdir və bu qədim türk sözü olub şumer, Azərbaycan, türk, altay, qaraqalpaq, qırğız, tatar, çuvaş dillərində "ağça//akça//ukce" fonetikası ilə işlənmiş, hazırda isə arxaikləşmişdir. Bu izahlardan sonra belə hesablaya bilərik ki, Sisyan nahiyəsinə tabe olan Qalacıq kəndi o dövrdə baldan əldə etdikləri gəlirindən Osmanlı büdcəsinə 250 qəpik məbləğində vergi ödəyirdilər. Təsərrüfatdan əldə etdikləri balın müəyyən hissəsini kənd əhalisi dəyişdirmə üsulu ilə əvəz edər, digər hissəsini isə bazarlarda satardılar. Bal, o dövrdə kərə yağı ilə dəyişdirilirdi. Dərələyəz nahiyəsinə tabe olan Amağu kəndinin əhalisi arıçılıq təsərrüfatından "bal üzrü" üçün 70 ağça vergi ödəyirdi ki, bu da pul vahidi ilə 70 qəpik edirdi.



Hər iki mənbədə Qərbi Azərbaycanın bütün kəndlərində buğda, arpa, darı, pambıq, gənəgərçək, mərcimək, noxud, çəltik, paxla və s. bitkilərin becərildiyi; heyvandarlıq sahəsində qoyun, keçi, camış, inək, at, ulaq və s. ev heyvanlarının, quşçuluq təsərrüfatında toyuq, hinduşka, ördək, qaz və s. ev quşlarının saxlanıldığı qeyd edilir. Osmanlı türkləri bunların bəzilərindən vergi almırdılar.

Kəndlilər məhsullarını alış-veriş etmək üçün İrəvan şəhərinə yaxın olan şəhər bazarlarına, Naxçıvana yaxın olanları buradakı bazarlara aparardılar. Bazarlarda isə hər kəsin öz müştərisi olardı, apardıqları toyuğu, yumurtanı, meyvələri, düyünü, tənbəkini, buğdanı, arpanı, pendiri, şoru, yağı və s. məhsulları onlara təhvil verib əvəzində həftəlik bazarlıq edib evlərinə dönərdilər. Kəndlilər məhsullarını şəhər bazarlarına adətən, at, ulaq arabaları ilə aparar, özləri isə yolu piyada gedərdilər. Bunu arabanın yükü çox olanda edərdilər. Arabasız qatırın belinə yükü vurub gedənlər də az deyildi. O dövrlərdə İrəvan, Naxçıvan, Gorus bazarları daha qaynar olardı. Orta əsrlərdə Osmanlı türkləri vergilərin məbləğini bazardakı qiymətlərə görə təyin edirdilər. Bu barədə "Dəftər"lərə ön söz yazan Ziya Bünyadov və Hüsaməddin Məmmədov qeyd edirlər ki, "İlk növbədə, xəzinə rəiyyətlərdən bazar qiymətinin dəyişməsindən asılı olmayaraq vergini natura ilə alır, xeyrini isə bazar qiymətinə görə ölçürdü. Quraqlıq illərində rəiyyət artıq natura şəklində və bazar qiyməti ilə deyil, "Dəftər"lərdə göstərilmiş və əvvəlki dövrlərə aid dövlət qiyməti ilə pullar, ağça ilə vergisini ödəyirdi".

Qərbi Azərbaycanın əksər bölgələrində heyvandarlıq təsərrüfatı yüksək səviyyədə inkişaf etmişdir, hətta bəylərin və xanların evləri həm kəndlərdə, həm də şəhərlərdə var idi. Onların kəndlərdə yüzlərlə baş qoyun, keçi sürüsü, malqarası və at ilxıları olardı. Rəiyyətlərin saxladığı iki qoyun və keçi üçün *"adəmu-ağnam"* deyilən vergi ödənilirdi. Məsələn, Dərələyəz nahiyəsinə tabe olan Heşin kəndində XVIII əsrin ikinci onilliyində "adəmu-ağnam" vergisinin miqdarı

190 ağça olmuşdur ki, bu rəqəmə əsasən deyə bilərik ki, bu kənddə 380 baş qoyun və keçi saxlanılırdı, yəni ikisindən bir ağça vergi alınanda 190 rəqəmi ikiyə vurulmaqla 380 alınır. Satış üçün seçilmiş erkək qoyun və keçilər axşamdan sürüdən ayrılardı, ya piyada, ya da arabalarla İrəvan bazarına gətirilər və qəssablara verilib ödənişini aldıqdan sonra geri dönərdilər. Bundan başqa, İrəvan şəhərinin bazarlarında ayrıca ətxanalar da fəaliyyət göstərirdi. Onlar da öz növbəsində ət satışından əldə etdikləri gəlirdən müəyyənləşdirilmiş qədərini vergiyə ödəyərdilər. İribuynuzlu heyvanların ətinin satışı və ödənilən vergi də özünəməxsus qaydalarla tənzimlənirdi.

1590-cı ilə aid “Dəftər”də İrəvan şəhərinin “Dəyirmantəpə” adlanan yerində at bazarının fəaliyyət göstərdiyi və vergi ödədiyi qeyd olunmuşdur. At bazarı dedikdə, Osmanlı məmurları burada təkcə bu heyvanın deyil, eyni zamanda qoyunun, keçinin, inəyin, öküzün, ulağın və s. satışını da nəzərdə tutmuşdular. Dəyirmantəpədəki at bazarı İrəvan şəhərinin şərqində, düzən bir sahədə yerləşirdi. Buranın müəyyən hissələrində boyaxanalar, aşxanalar, çayxanalar da fəaliyyət göstərirdi.

XVI-XVIII əsrlərdə Dərələyəz nahiyəsinin bəzi kəndlərində düyü becərilərdi. Buna nümunə olaraq Kosalı kəndini göstərə bilərik. “Müfəssəl dəftər”ə görə, kənddə düyü 2 kill miqdarında 30 ağça dəyərində istehsal olunurdu və 30 ağça dəyərində vergi ödənilirdi. “Kill” sözü oxucular üçün qaranlıq qalmasın deyə, bir qədər aydınlıq gətirmək istərdim. *“Kill”* ölçü vahidinin adını bildirən bir sözdür və düyünün miqdarı onunla təyin edilirdi. 1 kill 25 kq-a bərabər idi. O dövrdə Kosalı kəndində 50 kq, Sisyan nahiyəsinə tabe olan Zəbazadar kəndində 125 kq, Sisyan kəndində 325 kq, Əlili kəndində 150 kq, Ortagir kəndində 100 kq, Qarakilsə kəndində 25 kq, Qızılca kəndində 25 kq, Bələk kəndində 50 kq, Sələt kəndində 50 kq, Berdi kəndində 50 kq, Dərələyəzin Heşin kəndində 50 kq, Yaya kəndində 125 kq, Gənzək kəndində 50 kq, Çivə kəndində 25 kq və digər bölgələr istehsal edilən düyünün müəyyən hissəsini özlərinə götürər, digər hissəsini isə İrəvan bazarlarında satardılar.

Əyalətin “Müfəssəl dəftəri”ndə qeyd edilir ki, Dərələyəz və Sisyan nahiyələrinin bəzi kəndlərində pambıq becərilirdi. Ondan əldə edilən gəlirdən Osmanlı büdcəsinə *“man”* ölçü vahidi ilə pul ödənilirdi və 1 man 13 kq-a bərabər idi. Dərələyəz nahiyəsinə tabe olan Ortagöy kəndində 1728-ci ildə 5 man pambıq istehsal edilmişdir ki, bunun çəkisi ümumi hesabla 65 kq idi və osmanlılara 375 ağça həcmində vergi ödənilmişdir. Nahiyənin Arpa kəndində əkinçilər 7 man pambıq əldə etmişdilər ki, bunun da çəki miqdarı 105 kq edirdi, ağça pul vahidi ilə büdcəyə 525 məbləğini ödəyirdilər.

Sahələrdən yığılmış pambıqlar əvvəlcə keyfiyyətli şəkildə isti günün altında qurudulur, sonra qadınlar tərəfindən çiyidindən ayırd edilir, didilmiş, yəni tamamilə təmizlənmiş şəkildə satışa çıxarılardı. Yeni təmizlənmiş pambıq müştəriyə baha qiymətə təklif edilərdi. Pambıqdan cəhrədə əyrilmiş iplərdən qadınlar toxuculuq işlərində də istifadə edər və toxuduqları corab, geyim vasitələrini, gəbə, kilim, palazları bazarlarda satardılar. Bundan əlavə, qadınlar cəhrədə çəkdikləri pambıq iplərdən yorğan-döşəyin sırıqlanmasında, sirtovların (buna pambıqlı da deyilirdi – M.H.) iç və üst hissələrinin tikilişində də istifadə edərdilər. Həmçinin heyvanları bağlamaq üçün pambıq iplərdən toxunulmuş çatılar, kəndirlər ən yaxşı vasitə hesab olunurdu və bunların da bazarlarda satışına geniş yer verilərdi. İkinci qisim pambıq isə çiyidli şəkildə bazara çıxarılırdı. Pambıqçılar onun çiyidindən də gəlir əldə edərdilər, çiyid heyvandarlıq təsərrüfatında ən qidalı yem hesab olunardı.

Əyalətin bazarlarını müxtəlif cür meyvələr də bəzəyərdi. Qərbi Azərbaycanın bütün bölgələrində hər növdən olan meyvə yetişdirmək mümkün idi. Alma, armud, zoğal, albuxarı, gilənar, ərik, şaftalı, gilas, alça, nar və s. meyvələr həm həyətyanı sahədə, həm də meşələrdə yetişirdi. Osmanlılar əyalətin bütün kəndlərində *“meyvə üzrü”* adlı vergi növü tətbiq etmişdilər. Məsələn, əyalətin Sisyan nahiyəsinə tabe olan Zəki kəndində “meyvə üzrü”nə 550 ağça dəyərində vergi ödənilərdi. Kəndlilər öz-özlüyündə bu dövrdə bir bazar üsulu qururdular. Məsələn, adətən gilas meyvə növü arpa və ya buğdanın biçin vaxtı yetişdiyindən onu səbətlərə yığar, atın və ulağın belinə qoşalanmış şəkildə yerləşdirərək gilas olmayan kəndlərə aparar, pulla satdığını satar, sata bilmədiyini isə arpaya, buğdaya kiloq-

rama-kiloqram dəyişərdilər. Digər meyvələrin də satışını bu cür həyata keçirənlər olurdu. Kəndlilər alma, armud, üzüm, nar və alçanın qurudulmuşunu və yaşını mövsümə uyğun olaraq satışa çıxarardılar. Yaz, yay, payız aylarında İrəvan bazarlarında meyvələrin yaşları satıldığı halda, qış fəslində həm qurudulmuşlarına, həm də yaşlarına üstünlük verilərdi. Hətta üzümü ötən ildən Novruz bayramınadək saxlayıb bazara çıxaranlar da olurdu.

"İcmal dəftəri"nə görə, Dərələyəz nahiyəsinin bəzi kəndlərinə *"bostan məhsulları üzrü"* adlı vergi növü də tətbiq edilmişdir. Bu, o demək idi ki, kəndlilər şəxsi təsərrüfatlarında becərdikləri pomidor, xiyar, badımcan, bibər, göy-göyərti, lobya, maş, soğan, kartof, qarpız, yemiş və s. məhsullardan vergi ödəyərdi. Bu dövrdə Dərələyəzin bəzi kəndlərində 10 ağça həcmində bu məhsullardan əldə edilən gəlirdən vergi ödənilmişdir. Araşdırmalarımıza görə, Dərələyəzin tərəvəz məhsullarından əldə etdiyi gəlirdən ən çox bu dönəmdə vergi ödəyən Dakzid kəndi idi ki, bunun məbləği 500 ağça olmuşdur.

İrəvan bazarlarında ən çox satılan kənd təsərrüfatı məhsulları içərisində süd, qatıq, süzmə, kərə yağı, motal pendiri və s. olardı. Bu məhsullar əl üsulu ilə hazırlanar, saxsı qablarda, qoyun və keçi dərisindən düzəldilmiş motallarda müştərilərə təklif edilərdi. Bazarlarda əyalətin ustaları tərəfindən taxtadan düzəldilmiş, kərə yağı əldə etmək üçün böyük və kiçik ölçülərdə nehrələr saxsı qablarda satılardı.

İrəvan bazarlarında ən çox tələbat isə neft məhsullarına idi. Çünki bu dövrdə bazarları neftlə təmin edən Bakı şəhəri idi və bu məhsul dəvə karvanları ilə İrəvan bazarlarına aparılardı. Gecələr evləri qara çıraqlara neft tökərək işıqlandırardılar, bu da daha çox varlı təbəqəyə məxsus idi, çünki neft çox baha qiymətə satıldığından kasıblar ondan çox faydalana bilmirdilər. Bazarlarda odun və kömür üçün ayrıca yerlər ayrılmışdır. Buradan odundan düzəldilmiş kömürü daha çox aşxana sahibləri, qışda isə evləri qızdırmaq üçün varlı müştərilər alırdılar. İrəvan şəhərində və kəndlərində qışda hamı soba qurardı. O zamanlar odun və daş kömürü qızarmamış kürsünün hissəsinə töküb, üstünü örtərdilər ki, kömür qızardıqca kürsü buxarlansın, istilik otağın içərisini bürüsün. Onu da qeyd edək ki, bazarlarda əsas istifadə edilən



КАВКАЗЪ. 89. Базаръ въ Эривани.

ölçü vasitəsi *"tərəzi"* idi, malın çəkisi bunun vasitəsilə müəyyənləşdirilər, qiymətləri təyin edilərdi. Bu söz fars dilindən alınmış, bizim dildə isə mənası *"ölçü"* deməkdir.

XVI əsrdə Qərbi Azərbaycanın Dərələyəz mahalının bəzi kəndlərində tütün də yetişdirilirdi. 1728-ci il "İcmal dəftər"inə görə, Dərələyəz nahiyəsinə tabe olan Yaycı kəndində *"tənbəkidən üzr"* şəklində büdcəyə 600 ağça məbləğində vergi ödənilirdi ki, bu da kifayət qədər böyük rəqəmdir. Dərələyəzin Her-her kəndində də tütün becərilirdi ki, burada ödənilən verginin miqdarı 200 ağça olmuşdur. Tütünün qurudulması yolu ilə tənbəki əldə edilərdi və bundan sonra əldə ovulub qadınların toxuduqları torbalara doldurularaq həm evlərdə (yəni kəndlərdə), həm də İrəvan şəhərinin bazarlarında satılardı. Qadınlar "tütün torbası" adlı vasitəni xüsusi üsulla hazırlayar, onun ağzına qısa kəndirdən, ipdən bağlamaq üçün boğma da qoyardılar ki, torba cibə qoyularkən tütün tökülməsin. Tənbəki həm torbada, həm də açıq şəkildə bazarlarda satılardı.

**Nəticə.** Beləliklə, 1590-cı il və 1728-ci illərdə tərtib edilmiş *"İrəvan əyalətinin müfəssəl dəftəri", "İrəvan əyalətinin icmal dəftəri",* eləcə də *"Naxçıvan sancağının müfəssəl dəftəri"* kimi tarixi sənədlərə istinad edərək, orta əsrlərdə Qərbi Azərbaycanda fəaliyyət göstərən bazarlar haqqında müəyyən təsəvvürlər yaratmağa çalışdıq. Bütün bu sadalananlar Azərbaycan türklərinin bölgədəki yaşayış tərzinin, etnik dünyagörüşünün bir parçası kimi ən mühüm mədəniyyət nümunələridir. Həmin mədəniyyət göstəriciləri tarixən bu regionda yaşamış etnosların idrak aktı nəticəsində formalaşaraq ənənələrini bu gün də davam etdirməkdədir.